*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 iyun 2019-cu il № 50 (2367) Qiyməti 30 qəpik

## Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseydə yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub



*İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov burada aparılmış yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verdi.

Bildirildi ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey 11 hektar ərazini əhatə edir. Burada tikinti, təmir və yenidənqurma işlərinə 2018-ci ilin fevral ayında başlanıb. Hərbi liseyin ərazisində qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib, eləcə də mövcud binalar əsaslı təmir olunub və qurğular yerləşdirilib. Hərbi liseydə sahəsi 1800 kvadratmetr olan üçmərtəbəli yeni qərargah binası inşa olunub. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, abadlıq tədbirləri görülüb. Binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və ətrafında xatirə kompleksi yerləşir.

(Ardı 2-ci səhifədə)

## Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.

Təbrikdə deyilir:

Əziz həmvətənlər!

Əziz hərbi qulluqçular və veteranlar!

Bu gün biz Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd edirik. Bu, hərbi rəşadət, şərəf və igidlik bayramıdır. Bu gün biz həyatını riskə məruz qoyaraq Vətənimizi müdafiə edənlərin qəhrəmanlığına ehtiramımızı bildiririk.

Silahlı Qüvvələr Günü əsl ümumxalq bayramıdır. Ordu bizim dövlətçiliyimizin, təhlükəsizliyin və sabitliyin dayağıdır. Dövlətin hərbi qüdrəti bir çox amillərlə şərtlənir. Lakin bizim ordumuzun əsas gücü Azərbaycanın əsgər və zabitlərinin döyüş ruhu və Vətənə hədsiz sevgisidir.

Əziz hərbçilərimiz! Biz sizin mərdliyiniz, şücaətiniz və ən yüksək peşəkarlığınızla fəxr edirik. Bu əlamətdar bayram münasibətilə sizi ürəkdən təbrik edirəm.

## "Bakı forumu BMT-nin dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsinə dəyərli töhfədir"

Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən BMT-nin Dövlət Xidmətləri Forumu qurumun dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsinə dəyərli töhfədir.

Bu fikri AZƏRTAC-a müsahibəsində Forumun iştirakçısı, Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz səsləndirib.

"Bu tədbir vətəndaşlara göstərilən dövlət xidmətlərinin təkmilləşdirilməsi, eləcə də daha şəffaf və səmərəli çatdırılması baxımından çox əhəmiyyətlidir. Forum, həmçinin iştirakçılar arasında dövlət xidmətləri sahəsində ən yaxşı yerli təcrübələrin paylaşılması və əməkdaşlıq münasibətlərinin qurulması üçün nadir platformadır. Düşünürəm ki, bu mötəbər tədbir BMT-nin dayanıqlı inkişaf məqsədlərinin icrasına mühüm dəstək olacaq", - deyə səfir qeyd edib.

# Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseydə yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub



(Əvvəli 1-ci səhifədə)

Liseyin ərazisində tibb məntəqəsi də inşa olunub. İkimərtəbəli 32 çarpayılıq tibb məntəqəsində funksional diaqnostika, həkim, oftalmoloji kabinetlər, laboratoriya, sarğı otağı, təxirəsalınmaz yardımın göstərilməsi üçün otaq, xidməti otaqlar, palatalar və müasir yeməkxana yaradılıb. Buradakı şərait şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi yardımın göstərilməsinə imkan verir.

Hərbi liseydə yaradılan qapalı idman kompleksində kursantların idmanla məşğul olmaları üçün hərtərəfli imkanlar var. Kompleksdə trenajor, gimnastika zalları, mini futbol, basketbol və voleybol oyunlarının keçirilməsi üçün meydança yaradılıb.

Sonra dövlətimizin başçısı Hərbi liseydəki Heydər Əliyev Muzeyi ilə tanış oldu. Hələ sovet dövründə gələcəkdə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılıb. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu hərbi təhsil ocağına ən yüksək səviyyədə diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyevin 1998-ci və 2002-ci illərdə imzaladığı sərəncamlarla Hərbi liseyin yaradılmasının 25 və 30 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd edilib. Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda nizami ordu quruculuğu, Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması, o cümlədən Hərbi liseyin inkişafına göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolar, sənədlər və nəşrlər nümayiş olunur.

Dövlətimizin başçısı Hərbi liseydə təhsil alan kursantların yaşayış və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan dördmərtəbəli yataqxana korpusu ilə də tanış oldu. Yeni tikilən binada konfrans zalı, ideoloji, məişət və digər otaqlar zəruri avadanlıqla təchiz edilib. Yataqxanada kursantların qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Liseydə üçmərtəbəli yataqxana korpusu da əsaslı təmir olunub.



Sonra Prezident İlham Əliyev Hərbi liseyin klubunda yaradılan şəraitlə tanış oldu. Liseydə aparılan yenidənqurma və təmir işləri çərçivəsində klubun binası da əsaslı təmir edilib. Klubun 350 yerlik binasında mədəni-maarif tədbirlərinin keçirilməsi üçün bütün şərait var. Burada, eyni zamanda, ölkəmizin və liseyin həyatında baş verən əlamətdar hadisələri qeyd etmək mümkündür.

Daha sonra dövlətimizin başçısı kursant yeməkxanasında yaradılan şəraitlə maraqlandı. İkimərtəbəli yeməkxana binası da əsaslı təmir olunub. Bütün avadanlıqla təchiz edilmiş binada eyni vaxtda 600 kursant nahar edə bilər. Burada yemək zalı, mətbəx və təsərrüfat otaqları, ərzaq və soyuducu anbarları var. Dövlətimizin başçısının qayğısı sayəsində bu gün Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların qidalanması məsələsinə də xüsusi diqqət yetirilir.



Hərbi liseyin tədris korpusunda yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, dördmərtəbəli bina da əsaslı təmir edilib. Burada tədris prosesi Azərbaycan dili, ictimaiyyət, riyaziyyat, informatika, xarici dil və təbiət fənn bölmələri üzrə həyata keçirilir. Korpusda fənn kabinetlərində, kimya və fizika laboratoriyalarında kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıb.

Yenidənqurma işləri zamanı liseyin təntənəli mərasimlər, sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sahəsi üç min kvadratmetr olan sıra meydanı da salınıb və tribuna inşa edilib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına, istərsə də müasir silah-sursat arsenalına görə dünyada lider yerlərdən birini tutur. Bu, göstərir ki, Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla uğurla reallaşdırılır. Dövlətimizin başçısının rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün Milli Ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır.

Prezident, Ali Baş Komandan İlham Əliyev 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarını və müəllimlərini təbrik edərək dedi:

- Silahlı Qüvvələr Günü münasibətilə Sizi təbrik edir, hər birinizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz gözəl hərbçi kimi özünüzü göstərəsiniz.

Bilirsiniz ki, bu məktəbin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə bu məktəb 1971-ci ildə yaradılmışdır. Ulu Öndər həmişə bu məktəbin fəaliyyətinə böyük diqqət göstərmişdir. Hələ o vaxt bilirdi ki, bizə milli hərbçi kadrlar lazım olacaq və belə də oldu.

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir.

Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir.

Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək.

Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək.

Azərbaycan bu gün bütün sahələrdə uğurla inkişaf edir. Əminəm ki, bu inkişaf dayanıqlı olacaq.

Sizə - burada oxuyan kursantlara və çalışan müəllimlərə yeni uğurlar, cansağlığı arzulayıram. Vətənin qorunması işində siz həmişə fəal olmalısınız və öz gücünüzü göstərməlisiniz.

Sizi bir daha təbrik edirəm.

Bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Ali hərbi rütbələrin təqdimetmə mərasimi keçirilib

*İyunun 25-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Sərəncamına əsasən, ali hərbi rütbələr verilən Müdafiə Nazirliyinin hərbi qulluqçuları ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və Müdafiə nazirinin müvafiq əmri təntənəli şəraitdə oxunduqdan sonra hərbi qulluqçulara ali hərbi rütbələrin təqdimetmə mərasimi keçirilib. Ali Baş Komandanın təbriklərini hərbi qulluqçulara çatdıran Müdafiə naziri onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.

# Azərbaycan hərbçiləri Belarusda keçiriləcək hərbi paradda iştirak edəcək

Azərbaycan Ordusunun bayraqdarlar heyəti iyulun 3-də keçiriləcək Belarus Respublikasının Müstəqillik Gününə həsr olunmuş hərbi paradda iştirak etmək üçün Minsk şəhərindədir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi qulluqçularımız digər ölkələrin parad heyətləri ilə birlikdə hazırlıq məşqlərinə başlayıblar.

Qeyd edək ki, hərbi paradda Azərbaycan Ordusunun bayraqdarlar heyəti ilə yanaşı Belarus Respublikası, Rusiya Federasiyası və Çin Xalq Respublikasının parad heyətləri də iştirak edəcəklər.

# ƏÜO-da ixtisas hazırlığı kurslarını bitirmiş gənc əsgərlər xidmət yerlərinə yola salınıb

*Əlahiddə Ümumqoşun Orduda ixtisas hazırlığı kurslarını uğurla bitirmiş gənc əsgərlər xidmət yerlərinə yola salınıb.*



Aprel ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənclərin ən çətin döyüş tapşırıqlarını yerinə yetirəcək peşəkar əsgərlər kimi hazırlanması üçün hərbi hissələrdə və təlim mərkəzlərində ümumqoşun, ixtisas və fiziki hazırlıq üzrə dərs və məşğələlər keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Mərasimdə zabit, əsgər və valideynlər gənc əsgərləri kursu başa vurmaları münasibəti ilə təbrik ediblər.

Çıxışların ardından Əlahiddə Ümumqoşun Ordu Komandanı general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Elman Orucov bildirib ki, gənclərin təntənəli şəkildə hərbi xidmətə yola salınması və hərbi hissələrə qəbulunun yüksək səviyyədə keçirilməsi əsgər adına verilən qiymətin göstəricisidir.

Naxçıvanda keçirilmiş "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimində şəxsi heyətin məşğələlərdə qazandıqları bilik və bacarıqları böyük vətənpərvərlik hissləri ilə nümayiş etdirməsi hərbçilərimizin yüksək peşəkarlığından xəbər verir. İnanırıq ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz nümunəvi xidmətləri ilə komandirlərinə və valideynlərinə hər zaman başucalığı gətirəcəklər.

Tədbirdə əsgərlər müxtəlif ixtisaslar üzrə elementləri praktiki yerinə yetiriblər.

Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edilib, nümunəvi xidmət ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıb.

**Leytenant
Nəriman NƏCƏFOV,
"N" hərbi hissəsi**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

## Hərbi Orkestrin konserti olub

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında Əlahiddə Ümumqoşun Ordunun Nümunəvi Hərbi Orkestrinin konserti olub. Konsert Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr edilib. Əvvəlcə Nümunəvi Hərbi Orkestrin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Sonra Hərbi orkestr marşlar və hərbi mahnılar ifa edib. Naxçıvan şəhərinin sakinləri və qonaqlar tərəfindən izlənilən ifalar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

# "Müharibələrdə yeni tendensiyaların sülh və inkişafa təsiri" mövzusunda 2-ci Beynəlxalq Müdafiə Forumu keçirilib



Pekin şəhərində Çin Xalq Azadlıq Ordusunun Milli Müdafiə Universitetində "Müharibələrdə yeni tendensiyaların sülh və inkişafa təsiri" mövzusunda 2-ci Beynəlxalq Müdafiə Forumu keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun zabiti 2-ci dərəcəli kapitan Rəşad Məmmədov forum çərçivəsində "Süni intellektin müdafiə məsələlərində istifadəsi: çağırışlar, perspektivlər və risklər" mövzusunda geniş auditoriya qarşısında çıxış edib.

Keçirilən forumda Çin Xalq Azadlıq Ordusunun Milli Müdafiə Universitetinin rəhbərliyi, Beynəlxalq Qızıl Xaç Komitəsinin Qərbi Asiya üzrə regional rəhbəri, o cümlədən 88 ölkədən 194 yüksək rütbəli dinləyici iştirak edib.

Tədbirin sonunda 2-ci dərəcəli kapitan R.Məmmədov Çin Milli Müdafiə Universitetinin rəis müavini general-leytenant Zhoy Aimin tərəfindən sertifikat ilə təltif olunub.

# Düşmən təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daima atəş altında saxlayır

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) nümayəndəsi polkovnik-leytenant Harri Okonnor iyunun 25-də Ağdam rayonunda olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ağdam rayon İcra Hakimiyyətində keçirilən görüşdə ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində yaranan problemlər, cəbhə xəttində yaşayan dinc əhalinin üzləşdiyi çətinliklər barədə məlumat verilib. Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov bildirib ki, Ermənistan silahlı birləşmələri rayonun təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daima atəş altında saxlayır, dinc əhalinin təsərrüfat işləri ilə məşğul olmasına mane olur.

Diqqətə çatdırılıb ki, sonuncu monitorinqin keçirildiyi fevralın 27-dən indiyədək mülki əhalinin yaşadığı ərazilərdə 161 dəfə atəşkəs pozulub. İyunun 20-də Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunun işğal altında olan Baş Qərvənd kəndində törətdiyi yanğınlar təmas xəttini keçərək Mirəşelli kəndi ərazisinə yayılıb. Yanğın nəticəsində Mirəşelli kənd qəbiristanlığı tamamilə yanıb.

AZƏRBAYCAN ORDUSU

# "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!"

## aksiyasına yekun vurulub

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası artıq başa çatıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, UNEC-in əsas binasında Silahlı Qüvvələr Günü münasibətilə təşkil edilən təntənəli mərasimdə Müdafiə Nazirliyi və Təhsil Nazirliyinin rəsmiləri, qeyri-hökumət təşkilatlarının, eləcə də universitetin professor-müəllim və tələbə heyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradov Azərbaycan




Ordusunun tarixi barədə ətraflı məlumat verib və respublikamız müstəqilliyini bərpa etdikdən sonra ordu quruculuğunda həyata keçirilən mühüm islahatlardan, müasir güclü Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin müstəsna xidmətlərindən danışıb.

Qeyd olunub ki, Azərbaycan Ordusu 50 ölkənin orduları sırasında yer alan dünyanın güclü ordularındandır və bu ordu günü-gündən daha da möhkəmlənir, qüdrətlənir. Maddi-texniki təminatla yanaşı, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik hissi çox yüksək səviyyədədir. 2016-cı ilin Aprel, 2018-ci ilin isə Günnüt zəfərləri Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha təsdiqlədi. Bu qələbələr Azərbaycan dövlətinin və ordusunun gücünü, eyni zamanda, xalqımızın birliyini və həmrəyliyini göstərdi. Ali Baş Komandan cənab İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, biz çox güclü ordu yaratmışıq və düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin.

Rektor vurğulayıb ki, müharibə hələ bitməyib. Odur ki, biz hər birimiz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğaldan azad edək. Bunun üçün isə digər amillərlə yanaşı, ordu ilə xalqın mənəvi birliyinin təmin olunması, bu işin daha da gücləndirilməsi qarşıda duran əsas vəzifələrimizdəndir. Ordu ilə xalqın birliyi həm xalqın gücünü artırır, həm də ordunu daha da yenilməz edir.

Nəzərə çatdırılıb ki, bu istiqamətdə UNEC kollektivinin həyata keçirdiyi layihələrin çox böyük əhəmiyyəti var və bu vətənpərvərlik tədbirləri bundan sonra da uğurla davam etdiriləcək.

Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının əlaqələndiricisi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani deyib: "UNEC nəinki respublikamızda, eləcə də dünyanın bir çox ali məktəbləri içərisində böyük nüfuz qazanmış ali təhsil ocaqlarından biridir. UNEC rəhbərliyinin vətənpərvər iqtisadçı kadrlar yetişdirilməsində fəaliyyəti təqdirəlayiqdir. Bu ali məktəbi bitirənlər digər sahələrdə olduğu kimi, ordu sıralarında da Vətənə sədaqətlə xidmət edir, əsgəri borclarını şərəflə yerinə yetirirlər. UNEC-in neçə-neçə məzunu respublikamızın ərazi bütövlüyünün qorunması uğrunda göstərdikləri şəxsi şücaətə görə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, döyüş orden və medallarına layiq görülüblər. Aprel döyüşləri zamanı şəhidlik zirvəsinə ucalan igidlərimizdən Tural Dadaşov və Mahir Mirzəyev UNEC-in yetirmələridirlər.

"Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası isə UNEC-in ən böyük layihələrindən biridir. Bu təşəbbüs bütün cəmiyyət tərəfindən rəğbətlə qarşılanıb və ümumrespublika hərəkatına çevrilib. Aksiya çərçivəsində onlarla tədbir keçirilib. Professor, müəllim və tələbələrin, o cümlədən aksiyaya qoşulan görkəmli elm, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində şəxsi heyətlə görüşləri, təşkil edilən mədəni-kütləvi tədbirlər hər bir əsgərin, zabitin döyüş ruhunun daha da yüksəldilməsinə zəmin yaradıb, işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyinə, respublikamızın ərazi bütövlüyünün bərpa olunacağına inamını daha da artırıb".

Xüsusilə cəbhəboyu bölgələrdə - ön səngərlərdə keçirilən bir-birindən maraqlı tədbirlər həm döyüşçülərin, həm də universitet kollektivinin həyatında unudulmaz izlər buraxıb.

Rektor başda olmaqla, UNEC-in 20 min nəfərlik kollektivi aksiyaya qoşularaq Azərbaycan Ordusuna mənəvi dəstək nümayiş etdiriblər.

İqtisadi məsələlər üzrə prorektor, hüquq üzrə fəlsəfə doktoru, dosent, Qarabağ müharibəsinin iştirakçısı Mikayıl Zeynalov, xarici dillər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Afət Abbasova, fizika və kimya kafedrasının müdiri, professor Rövnəq Rzayev, UNEC Qadınlar şurasının sədri, dosent Təranə Kərimova, iqtisadçı vətənpərvərlər təşkilatının sədri, tələbə Yusif Cəfərzadə və başqaları səfər təəssüratlarını danışaraq Azərbaycan Ordusunun, həqiqətən, regionun ən güclü ordusu olduğuna bir daha şahidlik etdiklərini bildiriblər.



Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyev aksiyanın başa çatması münasibətilə kollektivi Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib və UNEC-in vətənpərvərlik işi sahəsindəki fəaliyyətinin digər kollektivlərə də nümunə olacağına əminliyini bildirib.

General-mayor Rasim Əliyev vurğulayıb ki, Azərbaycan Ordusunun 101 yaşı tamam olsa da, mütəşəkkil ordumuzun yaranması ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə mümkün olub və bu ordu möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin sayəsində daha da güclənib, möhkəmlənib. Ordumuz qarşısına qoyulan istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdir.

Sonra Azərbaycan Dövlət İqtisad Universitetinin bir qrup müəllim və tələbələrinin mükafatlandırılması haqqında Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri oxunub.

UNEC-in rektoru, professor Ədalət Muradov Azərbaycan Respublikasının Prezidenti adından Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə, müəllim və tələbələrdən isə Mikayıl Zeynalov, Afət Abbasova, Rövnəq Rzayev, Təranə Kərimova, Aqil Əzizov, Yusif Cəfərzadə qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Rektor Ədalət Muradov Müdafiə nazirinə UNEC-in kollektivi adından minnətdarlıq ifadə edərək bildirib ki, Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası başa çatsa da, biz bu aksiyanı nə qədər ki, torpaqlarımız azad edilməyib, ərazi bütövlüyümüz bərpa olunmayıb, davam etdirəcək və Ali Baş Komandan cənab İlham Əliyevin əmrlərinə hər an hazır olacağıq.

Mərasimin sonunda universitetin nəşri olan "Səninlə fəxr edirik, Azərbaycan əsgəri" adlı kitab-albomun təqdimatı olub və ilk nüsxələr mərasim iştirakçılarına paylanıb.

Bu kitab-albom 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə cəbhəboyu bölgələrdəki hərbi hissələrdə keçirilən tədbirlərdə əsgər və zabitlərimizə hədiyyə ediləcək.

# Şəhid ailələrinin bir qrupu ilə görüş keçirilib

*Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə Müdafiə Nazirliyinin təşəbbüsü ilə şəhid ailələrinin bir qrupu ilə görüş keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyev qeyd edib ki, dövlətimiz tərəfindən müstəqilliyimiz, suverenliyimiz və ərazi bütövlüyümüzün təmin edilməsi, qorunub saxlanılması üçün ölkənin hərbi qüdrətinin artırılması, hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi, ordunun döyüş qabiliyyətinin gücləndirilməsi və mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi istiqamətində böyük işlər görülüb.

"Bu gün Azərbaycanda ölkənin müdafiə potensialının gücləndirilməsi, ölkəmizdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ilə yanaşı, ordu sıralarında xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsi, mənzil-məişət problemlərinin həll olunması, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi də daim diqqət mərkəzində saxlanılır. Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə canını qurban verən vətəndaşlarımızın ailə üzvlərinin yaşayış səviyyəsinin yaxşılaşdırılması daim dövlətin nəzarəti altındadır", - deyə general-mayor Rasim Əliyev bildirib.

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev qeyd edib ki, Azərbaycanda Qarabağ müharibəsi əlillərinə, veteranlarına və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir. Ulu Öndərin təşəbbüsü ilə 2001-ci ildə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin təsis edilməsi bu qəbildən olan insanlara verilən ən böyük dəyərdir. Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin və veteranların qanuni mənafelərini və hüquqlarını müdafiə etmək, onların müasir həyat şəraitinə uyğunlaşdırılmasına, sosial-iqtisadi və mənəvi problemlərinin daha səmərəli həll olunmasına köməklik göstərmək, onların əməkdaşlığını və qarşılıqlı əlaqələrini möhkəmləndirmək məqsədilə biz sizə və sizin simanızda olan hər bir şəhid ailəsinə dəstək olmaq üçün əlimizdən gələni etməyə hər zaman hazırıq".

Tədbir iştirakçılarına Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə mükafatlar təqdim edildikdən sonra xatirə şəkli çəkdirilib.

Sonra şəhid ailələrinin nümayəndələri çıxış edərək onlara daim qayğı ilə yanaşan ölkəmizin başçısına minnətdarlıqlarını bildirib, bir sıra məsələlərin həlli ilə bağlı arzu və təkliflərini səsləndiriblər.

# Ordumuz-qürurumuz

*Dövlətin özünü də, dövlətçiliyi də ordusu qoruyur. Bu, ordunun gücüdür, ordu dövlətin. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etmişdi. Müstəqil Azərbaycan Respublikasının ordusu Azərbaycan Xalq Cümhuriyyətinin ordusunun varisi kimi formalaşdı, gücləndi, nəinki Cənubi Qafqazda, dünya miqyasında da ən güclü ordulardan biri oldu.*



Dövlətin müstəqilliyi onun ordusunun gücündən bilavasitə asılıdır. Ordunun gücü dövlətin iqtisadiyyatıyla, dövlətin gücü ordunun qüdrətiylə, qüdrəti gücüylə müəyyənləşdirilir. Ordu iqtisadiyyatı dinamik inkişafda olan dövlət üçün prioritetdirsə, güclü olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fəxrlə bildirir: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var". Bu ordunun 101 illiyini qeyd edirik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamıyla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildi. Cümhuriyyət ilində Azərbaycan Ordusunun yaranmasının, Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan möhtəşəm paradlar keçirildi. Xalq bu paradları milli-xəlqi ruhumuzun paradı kmi izlədi. İndi tarix olan o günlər böyük qürurla, fəxrlə xatırlanmaqdadır. Biz sevgilərlə, bizə düşmən kəsilənlər səksəkəylə, vahiməylə əmindirlər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin paradda dedikləri yaxın vaxtlarda gerçəkləşəcək reallığın ifadəsidir: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək."

101 yaşlı Azərbaycan Ordusunun inkişafı özünəməxsus xüsusiyyətlərə malik olmaqla müəyyən mərhələlərdən keçib.

Müstəqilliyin ilk illərində yaradılmış yerli müdafiə batalyonları ordu kimi fəaliyyət göstərmirdi. Bu və ya digər ictimai qurumun, hətta fərdin iradəsinə xidmət etdiyi üçün bu batalyonlar nizami ordu kimi formalaşa bilməzdi. Həm də ambisiyalar, peşəkarlığın olmaması, batalyonların siyasi mənsubiyyəti səbəbindən Ermənistan Azərbaycanın yeddi rayonunu işğal etdi.

Hakimiyyət səriştəsizliyi respublikada siyasi gərginlik, siyasi gərginliyin nəticəsi kimi vətəndaş qarşıdurması yaratmışdı. Tarix təsdiqləyir ki, belə vəziyyətlərdə dövlətçiliyi ancaq olduqca həssas, olduqca dürüst, olduqca məntiqli, milli-xəlqi ruha əsaslanan siyasət xilas edə bilər. 1993-cü ilin yayında xalq vəziyyətdən yeganə qurtuluş ümidiylə təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə dəvət etdi. 15 iyun Azərbaycanın dövlətçilik tarixində Arximed nöqtəsi, istinad nöqtəsi oldu. Tarixi şəxsiyyətlər tarixin axarını xalqının, millətinin mənafeyi istiqamətinə yönəldə bilir. Mustafa Kamal Atatürk Türkiyəni xilas etdi, Heydər Əliyev Azərbaycanı. Respublikanın iqtisadi inkişafını təmin edən beynəlxalq müqavilələr imzalandı. İqtisadi inkişaf iqtisadi inkişafın dinamikası ordu quruculuğunu dövlət üçün prioritet məsələlərdən birinə çevirdi. Ordu quruculuğu istiqamətində müqayisəyəgəlməz islahatlar həyata keçirildi - yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq təmin olundu, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığında kifayət qədər təsirli tədbirlər ordunun nizami ordu kimi formalaşmasında əsaslı stimul oldu.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin sərkərdəliliyilə o dövr üçün olduqca gərəkli Horadiz əməliyyatı keçirildi. Qələbə ilə nəticələnən bu əməliyyat ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu kükrətdi. Azərbaycan əsgəri inandı və ictimaiyyəti inandırdı ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu inam xalqın orduya münasibətinin başlıca tərkib hissəsi oldu...

Ulu öndər Heydər Əliyev ordu quruculuğunu dövlət üçün prioritet elan etdi, orduya qayğı və diqqət daha da artdı, irimiqyaslı islahatlar həyata keçirildi, yeni hərbi hissələr istifadəyə verildi, əsaslı təmir edildi. Azərbaycan Ordusunun təminatına dünyanın əksər ordularının şəxsi heyəti həsəd apara bilər.

Horadiz əməliyyatından sonra Ali Baş Komandanın ön xətdə, səngərlərdə, əsgər və zabitlərlə müntəzəm söhbətləri, tövsiyələri, sözün əsl mənasında, ordu quruculuğunun dönməzliyinin təsdiqi kimi yaşanıldı. Bu görüşləri, söhbətləri, tövsiyələri əsgər və zabitlər döyüş əzminə, qələbə ruhuna sərkərdə xeyir-duası bildilər.

Bununla da Azərbaycan Ordusunda nizami ordu kimi formalaşma prosesi uğurla davam etdirildi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev azərbaycanlı olmasıyla həmişə qürurlanan, çağdaş Azərbaycan dövlətçiliyinin memarı olan dahi şəxsiyyət Heydər Əliyevin ordu quruculuğu siyasətini də uğurla davam etdirdi, Azərbaycan Ordusu ən müasir, yeni texnikalarla, qurğularla təchiz olundu, hərbi təhsil sistemi bu baxımdan təkmilləşdirildi. Ulu Öndərin sərəncamı ilə yaradılmış Ali Təyyarəçilik Məktəbində hazırlanan yüksək ixtisaslı hərbi pilotlar ən müasir döyüş təyyarələrini, döyüş helikopterlərini məharətlə idarə edir. Bu, 2016-cı ilin Aprel döyüşlərində də, 2018-ci ildə Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlarda da təsdiqləndi.

Azərbaycan Ordusunun pilotlarının nəyə qadir olması son təlimdə də təsdiqləndi. Digər təlimlər kimi, genişmiqyaslı bu əməliyyat-taktik təlim də yüksək səviyyədə keçdi. Bu təlimdə bölmələrin gecə şəraitində hücum əməliyyatının aparılması üzrə taktiki fəaliyyəti nümayiş etdirildi. Bu da ordunun gücü baxımından dəyərləndirilməlidir.

Azərbaycanda ordu dövlət üçün prioritetdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə hərbi qulluqçuların vəzifə maaşının artırılması dövlətin orduya növbəti qayğısının geniş ölçülü təzahürüdür. Bu qayğı dönməzdir, daimidir.

Azərbaycanda ordu quruculuğu dönməz prosesdir. Bu proses ordunun döyüş qabiliyyətinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət edir.

**Gülsürə HÜSEYNOVA,**
**Hərbi Akademiyanın adyunktu**

# Silahlı Qüvvələr Günü Moskvada qeyd olunub

*Azərbaycan Silahlı Qüvvələr Günü Rusiyanın paytaxtı Moskva şəhərində qeyd olunub. Tədbirdə ölkəmizin Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu, Azərbaycanın Müdafiə nazirinin müavini general-leytenant Fuad Məmmədov, xarici dövlətlərin hərbi attaşeləri, ictimaiyyət və media nümayəndələri iştirak ediblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbiri giriş sözü ilə açan səfir P.Bülbüloğlu 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin ən vacib qərarlarından birinin Azərbaycan Ordusunun yaradılması haqqında qərarı olduğunu söyləyib.

"Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ildə bərpa olundu. Müstəqilliyin ilk illəri ölkəmiz üçün çox ağır keçdi. Azərbaycan böyük problemlərlə, iqtisadi böhranla üzləşdi. Hakimiyyət uğurunda mübarizə vəziyyəti daha da çətinləşdirdi.

Belə ağır vəziyyətdə Azərbaycan xalqı müdriklik göstərərək görkəmli ictimai-siyasi xadim Heydər Əliyevə müraciət edərək onu respublikaya rəhbərlik etməyə dəvət etdi. Ümummilli Liderin hakimiyyətə gəlişindən sonra vəziyyət sabitləşdi və Azərbaycan çətin vəziyyətdən çıxa bildi. Ulu öndər Heydər Əliyev tərəfindən ilk növbədə qəbul olunan vacib qərarlardan biri mütəşəkkil ordunun yaradılması oldu.

1993-cü ildən Azərbaycan inkişaf yolu ilə irəliləyir. Bu siyasət hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında davam etdirilir. Bütün istiqamətlərdə, o cümlədən ordu quruculuğu sahəsində də bu iş yüksələn templə davam edir", - deyə P.Bülbüloğlu bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Müdafiə nazirinin müavini general-leytenant Fuad Məmmədov Azərbaycan Ordusunun hazırkı vəziyyəti haqqında məlumat verib. O, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun regionda ən güclü ordu olduğunu bildirib. Nazir müavini Azərbaycan və Rusiya arasında hərbi-texniki sahədə əməkdaşlıqdan da danışıb. O, bütün sahələrdə olduğu kimi, hərbi-texniki sahədə də əməkdaşlığın inkişaf etdiyini vurğulayıb.

Silahlı Qüvvələr Gününə həsr olunan tədbir bədii hissə ilə davam edib.

# Ordumuz iftixarımız, qürur mənbəyimizdir

Ağdam rayonunun Mahrızlı kəndindəki Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə tədbir keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, mədəniyyət işçilərinin, müəllim və şagirdlərin, gənclərin, "N" hərbi hissəsinin zabit və əsgərlərinin, Azərbaycan Alpaqut Federasiyasının Ağdam rayon filialının idmançılarının iştirak etdikləri tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib.

Mərasimdə Döyüş Şöhrəti Muzeyinin direktoru Sahib Məmmədov, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Ülvi Qədirov, rayon Gənclər və İdman İdarəsinin rəis müavini Anar Əsgərov, Azərbaycan Alpaqut Federasiyasının Qarabağ regional nümayəndəliyinin rəhbəri Kənan Quliyev çıxış edərək Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixindən, son illərdə ordu quruculuğu sahəsində əldə olunmuş uğurlardan danışıblar. Bildirilib ki, ordumuz hər birimizin iftixarı, xalqımızın qürur mənbəyidir.

Sonra məktəblilər vətənpərvərlik mövzusunda kompozisiya göstərib, şeirlər söyləyiblər. Təqdim olunan milli rəqslər, hərbi hazırlıqla bağlı çıxış və gənc idmançıların döyüş məharəti maraqla qarşılanıb.

Tədbir "Qarabağ şikəstəsi"nin ifası ilə başa çatıb.

* * *

Abşeron rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "N" hərbi hissəsində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə tədbir keçirilib.

Bayram tədbiri dövlət himninin səsləndirilməsi ilə başlayıb. Azərbaycan Ordusundan bəhs edən film nümayiş etdirilib.

Tədbirdə bildirilib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı tarixində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Ümummilli Liderin 1998-ci il mayın 22-də imzaladığı Fərmana əsasən, artıq 20 ildir ki, 26 İyun - Silahlı Qüvvələr Günü Azərbaycanda ümumxalq bayramı kimi qeyd edilir.

Hərbi hissənin komandanlığı zabit, gizir və sıravi əsgərlərin adından bayram tədbirinin təşkili üçün minnətdarlığını bildirib, ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlərdən danışıb.

Sonra hərbi hissəyə xatirə hədiyyəsi təqdim edilib.

Tədbir konsert proqramı ilə davam edib. Vətənpərvərlik ruhunda səsləndirilən mahnılar hərbi hissənin əsgər və zabit heyəti tərəfindən böyük coşqu ilə qarşılanıb.



# Azərbaycanlı zabitlər Rusiyada hərbi akademiyanı qızıl medal və qırmızı diplomla bitiriblər

*Sankt-Peterburq şəhərində Rusiya Federasiyası Müdafiə Nazirliyinin "Mixaylovsk hərbi artilleriya akademiyası" dinləyicilərinin növbəti buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cari ildə bu ali hərbi təhsil müəssisəsini Azərbaycan Ordusunun 3 zabiti bitirib. Polkovnik-leytenant Avnil Avnilov hərbi akademiyanı fərqlənmə ilə bitirərək qızıl medal alıb. Digər zabitlərimiz mayor Şamxal Səlimov və mayor Ramil İbrahimov isə akademiyanı qırmızı diplomla başa vurublar.

Dövlət imtahan komissiyasının qərarı ilə Azərbaycan Ordusunun hərbi qulluqçularına "magistr" dərəcəsi verilib.

# Azərbaycan nümayəndə heyəti "ARMY-2019" Forumu çərçivəsində bir sıra görüşlər keçirib

*Moskvadakı "Patriot-Ekspo" Konqres-Sərgi Mərkəzində təşkil olunan "ARMY-2019" V Beynəlxalq Hərbi-Texniki Forumunda iştirak edən Azərbaycan nümayəndə heyəti bir sıra görüşlər keçirib.*




AZƏRTAC xəbər verir ki, forum çərçivəsində Azərbaycan Müdafiə Sənayesi Nazirliyi ilə Rusiyanın Sənaye və Ticarət Nazirliyi arasında hərbi sənaye sahəsində əməkdaşlığa dair memorandum imzalanıb. Sənədi Azərbaycan Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev və Rusiya Sənaye və Ticarət nazirinin müavini Oleq Ryazantsev imzalayıblar.

Bundan əlavə, Azərbaycan Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev və Müdafiə nazirinin müavini general-leytenant Fuad Məmmədov "Rosoboroneksport" şirkətinin baş direktoru Aleksandr Mixeyev və Rusiya Taktiki Raket Silahları Korporasiyasının baş direktoru Boris Obnosov ilə görüşlər keçiriblər.

Qeyd edək ki, forum çərçivəsində təşkil olunmuş sərgidə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi öz stendini təqdim edir. Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Azərbaycan stendi ilə tanış olub. Müdafiə nazirinə Azərbaycan stendində nümayiş etdirilən silahlar barədə ətraflı məlumat verilib.

Müdafiə Sənayesi nazirinin müavini Yəhya Musayev TASS agentliyinə müsahibəsində Rusiya ilə bir sıra iri birgə layihələr həyata keçirildiyini bildirib. O qeyd edib ki, "Taktiki raket silahları" korporasiyası ilə birgə layihə çərçivəsində Azərbaycan tərəfi lisenziya üzrə "Kalaşnikov AK-74M" avtomatları istehsal edir. Bundan əlavə, Müdafiə Sənayesi Nazirliyinin ehtiyat hissələri və servis xidməti üzrə də müqaviləsi mövcuddur. Y.Musayev vurğulayıb ki, Azərbaycanda silah və hərbi texnika istehsalına xüsusi diqqət yetirilir, ölkəmiz hazırda xaricə atıcı silahlar və döyüş sursatları ixrac edir. Bu, Azərbaycanın yeni yaradılmış müdafiə sənayesi üçün nəzərəçarpacaq uğur sayıla bilər.

"ARMY-2019" forumu çərçivəsində təşkil olunmuş sərgi Rusiyanın digər regionlarında da nümayiş etdiriləcək. Forum iyunun 30-dək davam edəcək.

# Təlim və Tədris Mərkəzində Silahlı Qüvvələr Günü münasibətilə tədbir keçirilib

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Müdafiə Nazirliyinin, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin və Yasamal rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə bayram tədbiri keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə şəhid ailələrinin üzvləri, müharibə əlilləri, veteranlar, deputatlar, Yasamal rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Çıxış edənlər Silahlı Qüvvələr Günü münasibətilə şəxsi heyəti təbrik edib, respublikamızın ərazi bütövlüyü uğrunda göstərdikləri şərəfli xidmətdə onlara uğurlar arzulayıblar. Bildirilib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün ordumuz regionun ən qüdrətli ordusuna çevrilib. Güclü, sarsılmaz və yüksək mənəvi-psixoloji hazırlığa malik ordumuzun torpaqlarımızı işğaldan azad etməyə qadir olduğuna və ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyinə əminlik ifadə olunub.



Sonra yeniyetmə və gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinin təbliğində göstərdiyi səmərəli fəaliyyətə görə və bayram münasibətilə Təlim və Tədris Mərkəzinin bir qrup hərbi qulluqçusu Yasamal rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif edilib.

Tədbir tanınmış ifaçıların iştirakı ilə təqdim edilən konsert proqramı ilə davam edib.

# Silahlı Qüvvələrimizin ildönümü münasibətilə Hərb Tarixi Muzeyində tədbir keçirilib

*Bu günlərdə Müdafiə Nazirliyinin hərbi hissə və müəssisələrində Silahlı Qüvvələr Günü münasibətilə silsilə mərasimlər təşkil olunub. Azərbaycan Hərb Tarixi Muzeyində ordumuzun yaradılmasının növbəti ildönümünə həsr olunmuş "Milli-mənəvi dəyərimiz - Silahlı Qüvvələrimiz!" adlı tədbir keçirilib. Müdafiə Nazirliyinin müxtəlif idarə və müəssisələrinin zabit və əsgərləri, hərbi məktəblərimizin müəllim və kursantları, Qarabağ müharibəsi veteranları, həmçinin Gürcüstan Respublikasından gəlmiş alimlər və bu dövlətin Azərbaycandakı səfirliyinin hərbi attaşesi polkovnik Georgi Kvirikaşvili tədbirdə iştirak edirdilər.*

Mərasim iştirakçıları öncə ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan soydaşlarımızın ruhunu bir dəqiqəlik sükutla yad etdilər. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri açan Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə Silahlı Qüvvələrimizin keçdiyi inkişaf yoluna nəzər saldı. O bildirdi ki, hər bir vətənsevər azərbaycanlının güvənc yeri olan Azərbaycan Ordusu hazırda müstəqilliyimizin və suverenliyimizin keşiyində möhkəm dayanır.

Muzey rəisi Silahlı Qüvvələrimizin dövlət qayğısı ilə əhatə edildiyini, son illərdə maddi-texniki təminat və döyüş hazırlığı sahəsində böyük irəliləyişə nail olduğunu bildirdi. 2016-cı ilin Aprel döyüşləri zamanı və ordumuzun bölmələrinin düşmənə qarşı apardığı hərbi əməliyyatları, ötən ilin mayında Naxçıvanda həyata keçirilən əks-həmlə tədbirlərini, eyni zamanda önəmli yüksəkliklərin və ərazilərimizin bir qisminin düşməndən geri alınmasını qazanılmış uğurların bariz nümunəsi kimi göstərdi.

Ehtiyatda olan zabit vurğuladı ki, Silahlı Qüvvələrimizin yarandığı vaxtdan bu günə qədər keçdiyi inkişaf yolu Azərbaycan Hərb Tarixi Muzeyində sərgilənən çoxsaylı eksponatlarda öz əksini tapır.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan-Gürcüstan hərbi-diplomatik münasibətlərinin 100 illiyi ilə əlaqədar hər iki ölkə alimlərinin birgə araşdırmalarının yekunu kimi ərsəyə gəlmiş "Hərbi sahədə Azərbaycan və Gürcüstan münasibətlərinin təşəkkülü" kitabının təqdimatı keçirildi.



Yeni nəşr zəngin tarixi mənbələrə əsaslanır və 1918-1921-ci illərdə Azərbaycanla Gürcüstan arasında hərbi-diplomatik münasibətlər tarixinin öyrənilməsi baxımından dərin maraq kəsb edir. Ötən əsrin əvvəllərində müstəqillik qazanmış iki ölkə arasında mövcud olmuş hərbi-diplomatik münasibətlər əsərdə ətraflı əksini tapıb və geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Kitab rus, ingilis dillərində işıq üzü görüb və Azərbaycan dilində çapa hazırlanır.

Muzey rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə, kitabın həm müəllifləri Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin professoru, tarix elmləri doktoru, ehtiyatda olan I dərəcəli kapitan Nurulla Əliyev, BDU-nun "Qafqaz xalqlarının tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor İradə Hüseynova və Gürcüstan Respublikası Hərb Tarixi Cəmiyyətinin sədri, tarix elmləri doktoru, professor Mamuka Qoqitidze çıxış edərək kitabın elmi-tarixi məziyyətlərindən, ötən əsrin əvvəllərində müstəqilliyə nail olmuş Azərbaycan və Gürcüstan arasında bağlanmış hərbi sazişin tarixi əhəmiyyətindən söhbət açdılar və tarixən mövcud olmuş hərbi əməkdaşlığın bu gün də uğurla davam etdirildiyini qeyd etdilər.

Tədbirdə"Art studiya"nın azyaşlı üzvlərinin Silahlı Qüvvələrimizin ildönümünə həsr etdikləri rəsm əsərlərinin sərgisi nümayiş olundu və sərgi maraqla qarşılandı.

Tədbirin bədii hissəsində Müdafiə Nazirliyinin H.Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin hərbi ansamblının solistləri hərbi vətənpərvərlik mövzusunda mahnılar ifa etdilər.

**Əbülfət QASIMOV,**
**Azərbaycan Hərb Tarixi Muzeyi**

# Silahlı Qüvvələr Günündə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə mənzillər təqdim edilib

İyunun 26-da Silahlı Qüvvələr Günü ilə əlaqədar Prezident İlham Əliyevin hədiyyəsi olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 60 şəhid ailəsinə və Qarabağ müharibəsi əlilinə yeni mənzillər təqdim edilib. Həmin mənzillər Abşeron rayonunun Saray qəsəbəsində yeni inşa edilmiş yaşayış binalarından alınaraq verilib.

AZƏRTAC xəbər verir ki, mənzillərin sənədlərinin təqdim olunması mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov Silahlı Qüvvələr Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Nazir müavini Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində bu gün Azərbaycanın güclü orduya malik bir ölkə olmasının hər birimizdə sonsuz qürur hissi doğurduğunu vurğulayıb.

Anar Kərimov bildirib ki, dövlətimizin başçısının siyasətinin ana xəttini ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi təşkil edir. Bu il ərzində təqdim edilən iki sosial paket ölkədə minimum əməkhaqqının iki dəfəyə yaxın artaraq 130 manatdan 250 manata, minimum pensiyanın isə 72,4 faiz artaraq 116 manatdan 200 manata çatdırılmasına, sosial müavinətlərin və təqaüdlərin orta hesabla 100 faiz artırılmasına imkan verib. Dövlət sektorunda işləyənlərin də əmək haqları, məcburi köçkünlərin, tələbələrin təqaüdləri də əhəmiyyətli şəkildə artırılıb. Həmçinin dövlət 800 min vətəndaşın problemli kreditlərlə bağlı narahatlığına son qoyaraq həmin problemin həlli ilə əlaqədar maliyyə yükünü öz üzərinə götürüb. Ümumilikdə, təkcə bu il təqdim edilən iki sosial paket 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olub.

Nazir müavini qeyd edib ki, ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda mübarizədə əlil olan şəxslərə dövlətimizin başçısının xüsusi qayğısı nəticəsində ötən il nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil həmin kateqoriyalardan olan insanlara təqdim edilib. Bu il isə azı 800 mənzilin verilməsi nəzərdə tutulub və onlardan artıq 60 mənzil indi öz sahiblərinə təqdim edilir. Ümumilikdə indiyədək nazirlik tərəfindən həmin kateqoriyalardan olan insanlara 6714 mənzil verilib. Həmçinin ötən il 265 müharibə əlili minik avtomobili ilə təmin edildiyi halda, bu il həmin vətəndaşlara nəzərdə tutulduğundan 3,2 dəfə çox, yəni, 600-ə yaxın avtomobilin verilməsi planlaşdırılıb. Artıq bu ilin ötən dövründə 150 avtomobil həmin təbəqədən olan insanlara təqdim edilib. Beləliklə, indiyədək 6300-dək müharibə əlili yeni avtomobilə sahib olub.

A.Kərimov yeni mənzillə təmin olunan vətəndaşları təbrik edərək onlara ən xoş arzularını çatdırıb.

Nazirlik yanında İctimai Şuranın sədri Umud Mirzəyev, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev çıxış edərək həssas qrupların sosial təminatlarının gücləndirilməsi, onların rifah halının yaxşılaşdırılması məqsədilə Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamların, aparılan islahatların ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılandığını vurğulayıblar.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin üzvləri bütün sahələrdə diqqət və qayğı ilə əhatə olunduqlarını vurğulayıb, sosial təminatlarının gücləndirilməsindən, müavinət və təqaüdlərinin, pensiyalarının mütəmadi olaraq artırılmasından razılıqlarını ifadə ediblər. Onlar göstərilən yüksək qayğıya, bu gün isə yeni və rahat mənzillərlə təmin olunduqlarına görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildiriblər.

Sonra yeni mənzillərə baxış olub. Mənzillərin 12-si üçotaqlı, 31-i ikiotaqlı, 11-i birotaqlıdır. Onların hər birində müasir tələblərə cavab verən yaşayış şəraiti yaradılıb.

Ordu quruculuğu

# Azərbaycan Ordusu güclü ordular sırasındadır

*101 il əvvəl Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynayan milli ordu quruculuğu siyasətinin əsasının qoyulması xalqa göstərilən ən böyük xidmətlərdən sayılır. Dövlətin və onun nizami ordusunun formalaşdırılması xalqımıza və milli-mənəvi dəyərlərimizə verilən qiymətin təzahürü idi.*



XX əsrin əvvəllərində milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, milli dövlətçiliyimiz yolunda ölçüyəgəlməz, qarşısıalınmaz bir prosesə başlanıldı. Xalq Cümhuriyyətinin devrilməsi nəticəsində ordu quruculuğu prosesi müəyyən bir zaman kəsiyində yarımçıq qaldı. 1969-cu ildə böyük tarixi şəxsiyyət Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə hərbi kadr sahəsində mühüm işlər görüldü. Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının yaradılması, azərbaycanlıların hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycanın hərb tarixində yeni bir mərhələnin əsasını qoydu.

Ümummilli Lider tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunması və inkişaf etdirilməsi sonradan müstəqil Azərbaycanda nizami ordunun yaranmasına təkan oldu. Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə, o cümlədən ordu quruculuğu istiqamətində aparılan siyasət uğurları təmin etdi. Yerli müdafiə batalyonlarının buraxılması, vahid komandanlığın təmin edilməsi nizami ordunun formalaşmasına şərait yaratdı. 1994-cü ilin əvvəlində Ulu Öndərin sərkərdəliyiylə keçirilən Horadiz əməliyyatı qələbə ilə nəticələndi, Ermənistan atəşkəsə razılıq verməyə məcbur oldu. Nəticədə mərkəzləşmiş maddi-texniki təminat işində uğurlu addımlar atıldı, müxtəlif qoşun növlərinin, ayrı-ayrı hərbi hissələrin təminatı həyata keçirilməklə başa çatdırıldı, hərbi xidmətin hüquqi bazası və orduya çağırış təkmilləşdirildi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi. 26 İyun - Silahlı Qüvvələr Günü bayram olaraq rəsmi dövlət statusu qazandı.

Bu gün ümummilli lider Heydər Əliyevin ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın bütün strateji əhəmiyyətli sahələrində dinamik inkişafı təmin edən ardıcıl və sistemli islahatlar həyata keçirən dövlət başçısı ordu quruculuğuna da xüsusi diqqətlə yanaşır. Ordunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsi tədbirlərinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir. Prezidentimizin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Bunun nəticəsidir ki, hazırda Azərbaycan Ordusu möhkəm nizam-intizama, yüksək döyüş ruhuna malikdir.

Ordumuzun döyüş hazırlığı səviyyəsi daha da yüksəldilib, şəxsi heyət müasir silah və texnikadan məharətlə istifadə bacarığına yiyələnib. Maddi-texniki baza inkişaf etdirilir, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sistemi daim təkmilləşdirilir, hərbi təhsil və hərb elmi günün tələbləri səviyyəsinə qaldırılır, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilir.

Azərbaycan Ordusunun qüdrətini son illərdəki hərbi əməliyyatlar da sübut edir. Ermənistanın təxribatlarının qarşısı uğurlu əks-hücum əməliyyatları ilə alındı. Ordumuz qısa müddətdə bir sıra yaşayış məntəqələrini Ermənistanın işğalından azad etdi, cəbhədə təşəbbüs Azərbaycan Ordusunun əlinə keçdi. Ordumuz istənilən an işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Silahlı Qüvvələrin və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlar da ordumuzun yüksək döyüş qabiliyyətini, vətənpərvərlik əhvalruhiyyəsini bir daha sübut etdi. Güclü hərbi potensialın təkmilləşdirilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu adını dünya miqyasında 50 ən güclü ordu sırasına yazdı.

Bu il də Azərbaycan Ordusunda yeniləşməyə yol açan sürətli dəyişikliklər və komplektləşdirmə işləri həyata keçirildi. Ali Baş Komandanın və ordu rəhbərliyinin cəbhə bölgələrində yerləşən hərbi hissələrin şəraiti, əsgərlərin döyüş hazırlığı ilə tanış olmaları, əmr, tapşırıq və tövsiyələr vermələri öz dəstəyini göstərdi, cəbhə zonasında döyüş tapşırığı icra edən hərbi hissələrin məişət şəraiti daha da yaxşılaşdırıldı, döyüş növbəsi aparan əsgərlərin məişət xarakterli işlərlə məşğul olmalarının miqyası azaldıldı.

Ötən illərdə olduğu kimi, 2019-cu ilin altı ayı ərzində də Azərbaycan Ordusunda keçirilən bir neçə irimiqyaslı təlim diqqəti çəkdi və ölkənin müdafiə qüdrəti barədə layiqincə yüksək təəssürat yaratdı. Azərbaycan Ordusunun döyüş hazırlığı səviyyəsinin yoxlanılması, döyüş texnikasının, müasir silahların tətbiqi imkanlarının öyrənilməsi, qərargahlar tərəfindən əməliyyatların hazırlanması, qarşılıqlı fəaliyyət və təminatın təşkili, döyüş əməliyyatlarında qarşıya qoyulan tapşırıqların icrasının yoxlanılması məqsədilə keçirilən təlimlərə ordunun şəxsi heyəti, aviasiya, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunları, ən müasir standartlara uyğun zirehli texnikalar cəlb edildi.

Təlimlər, yoxlamalar və digər tədbirlər ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını da müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından ustalıqla istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərdi.

Ölkəmizin son illərdə dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi ilə müşayiət olunması ölkə başçısının fəaliyyətinin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində son illərdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Bu günlərdə ölkə başçısının bütün güc strukturlarının, o cümlədən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin dövlət büdcəsindən maliyyələşdirilən qurumlarının hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə imzaladığı Sərəncam da bu qəbildəndir.

Güclü ordu üçün ən əsas şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətidir. Əgər psixoloji durum yüksək səviyyədə olarsa, ən müasir texnika ilə təchiz olunmuş düşmənə də qalib gəlmək olar. Ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət Azərbaycan Ordusunun şəxsi heyətində mənəvi-psixoloji ruh yüksəkliyi yaradıb.

Bu gün yeni hərbi hissələr inşa edilməkdə davam edir, şəxsi heyət üçün hər cür şərait yaradılır. NATO standartlarına müvafiq şəkildə qurulan hərbi hissələrdə xidmət şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə də təsir göstərib. Hərbi xidmətin nüfuzunun artırılması və maddi stimullaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi hərbi quruculuqda aparılan irimiqyaslı islahatlar çərçivəsində təqdirəlayiq işlərdən hesab olunur. Müdafiə Nazirliyi tərəfindən ölkənin əsas güc strukturlarından biri kimi bu sahədə bir neçə yeni qanunvericilik aktının layihələrini hazırlayıb, aidiyyəti dövlət qurumları ilə razılaşdırıb və onlar müvafiq instansiyalara təqdim edilib.

Bu gün Azərbaycan Ordusunda və başqa silahlı birləşmələrdə qanunvericiliyin tələblərinə tam və dönmədən əməl olunması, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, eləcə də insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi sahəsində Hərbi Prokurorluğun da fəaliyyəti danılmazdır. Yuxarıda qeyd edilən amilləri təmin etmək məqsədilə Hərbi Prokurorluğun Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və digər hərbi qurumlarla birgə hazırladığı "Hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsinə dair", "Cinayətkarlığa qarşı mübarizəyə dair", "Cinayət hadisələrinin qarşısının alınmasına dair", "Hərbi qulluqçularda vətənpərvərlik hisslərinin gücləndirilməsinə dair" və s. mövzular üzrə tədbirlər planları əsasında Hərbi Prokurorluğun yüksək vəzifəli işçiləri həmin qurumların rəhbər vəzifəli əməkdaşları ilə birgə mütəmadi olaraq səmərəli işlər görür, tədbirlər təşkil edirlər. Bu tədbirlərdə hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılır, onların fərdi qəbulları keçirilir, əsgərlərin asudə vaxtının təşkili işində yaxından iştirak edilir. Bütün bu görüşlərin əsas məqsədi möhtərəm Prezidentimizin rəhbərliyi ilə həyata keçirilən dövlətçilik siyasətini hərtərəfli dəstəkləyərək ölkədə təhlükəsizliyin və sabitliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında, xalqına və dövlətinə xidmətdə öz töhfəsini verməkdir.

Azərbaycan Ordusuna ictimai nəzarət üçün yüksək səviyyədə şəraitin yaradılması isə ordu rəhbərliyinin ordu-cəmiyyət əlaqələrinə xüsusi önəm verməsindən xəbər verir. "Açıq qapı" günlərinin keçirilməsi bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Televiziya ekranlarında deputatların, jurnalistlərin, qeyri-hökumət təşkilatların təmsilçilərinin müntəzəm olaraq hərbi hissələrə getdiklərini, əsgərlərin şəraiti ilə maraqlandıqlarının şahidi oluruq.

Azərbaycanın hərbi sənaye kompleksi də formalaşıb. Bu gün Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Müdafiə Nazirliyinin rəhbərliyi ölkəmizin NATO ilə uğurlu əməkdaşlığına da xüsusi diqqət ayırır. Bu da Azərbaycan Ordusunun modernləşməsinə və NATO standartlarına uyğunlaşdırılmasına mühüm töhfələr verir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrdə islahatların davam etdirilməsini, ordu quruculuğunun daha müasir metodlarla həyata keçirilməsini, döyüş hazırlığının ən müasir tələblərə cavab verə biləcək səviyyəyə çatdırılmasını prioritet vəzifələr kimi müəyyənləşdirməsi ordunun inkişafının əsasında dayanır. Ordu məsələlərinə yüksək diqqət Ermənistanla aparılan danışıqların ölkəmiz üçün ədalətli şəkildə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın üstünlüyünü təmin edir. Azərbaycan Ordusu ən şərəfli missiyasının - torpaqlarımızın işğaldan azad edilməsi vəzifəsinin öhdəsindən gəlməyə hər an hazırdır.

**Fərrux ƏZİMLİ,**
**Füzuli Hərbi Prokurorunun köməkçisi**

# Silahlı Qüvvələr Günü Tbilisidə qeyd olunub



Azərbaycan Silahlı Qüvvələri Günü Gürcüstanın paytaxtı Tbilisidə qeyd olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, səfirliyin hərbi attaşe aparatının rəhbəri polkovnik-leytenant Fuad İbrahimov, səfirliyin və attaşe aparatının əməkdaşları Tbilisinin mərkəzindəki Heydər Əliyev Parkında Ümummilli Liderin abidəsini ziyarət ediblər.

Onlar müasir Azərbaycan dövlətinin və ordusunun qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, büstü önünə gül dəstələri düzüblər.

Bayram tədbirində Türkiyənin Gürcüstandakı hərbi attaşesi polkovnik Bülənt Akdeniz, müavinləri - polkovnik-leytenant Əkrəm Karakuş və mayor Aydın Tokuşlu, həmçinin Azərbaycan mediasının bu ölkədəki nümayəndələri də iştirak ediblər.

Türkiyəli zabitlər və Azərbaycanın media nümayəndələri bütün türk dünyasının dahi şəxsiyyətlərindən biri olan ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Mərasimdə çıxış edən səfir D.Həsənov Silahlı Qüvvələr Günü münasibətilə hərbçiləri təbrik edib, onlara uğurlar arzulayıb.

Hərbi attaşe aparatının zabitləri parka toplaşan insanlara müstəqil Azərbaycan dövləti və ordusunun inkişafı, Azərbaycanın demokratik, sülhsevər ölkə olması barədə məlumat veriblər.

# NATO-nun mənzil qərargahında Azərbaycan Silahlı Qüvvələri Günü münasibətilə tədbir keçirilib

Azərbaycan Silahlı Qüvvələrinin yaranması və ölkəmizlə NATO arasında tərəfdaşlığın 25-ci ildönümü münasibəti ilə Azərbaycan Respublikasının Şimali Atlantika Alyansı Təşkilatı yanında Nümayəndəliyi tərəfindən Brüssel şəhərində yerləşən NATO-nun mənzil qərargahında rəsmi ziyafət və foto sərgi təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə NATO-nun üzv və tərəfdaş ölkələrinin Alyans yanındakı səfirləri, hərbi nümayəndələri, diplomatik korpusun üzvləri, NATO-nun Beynəlxalq Qərargahının və Beynəlxalq Hərbi Qərargahının üzvləri, NATO-nun Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığı (SHAPE) Qərargahının rəsmiləri iştirak ediblər.

Tədbir zamanı qonaqlara Azərbaycan Silahlı Qüvvələrinin yaranması və inkişaf tarixi ilə yanaşı, Azərbaycanın NATO ilə 25 illik çoxşaxəli əməkdaşlığı, sülhməramlı əməliyyatlar çərçivəsində beynəlxalq sülhə və təhlükəsizliyə verdiyi töhfə və Avro-Atlantik məkanda sülhə nail olmaq istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyətlər barədə məlumatlar verilib.

Rəsmi qəbul zamanı qonaqlara Azərbaycan mətbəxinin nümunələri təqdim olunub.



# Hər bir Azərbaycan vətəndaşı ordumuzun bugünkü qüdrəti ilə haqlı olaraq qürur hissi keçirir

İyunun 26-da Göyçay şəhərindəki Əli Kərim adına parkda Azərbaycan Silahlı Qüvvələri Günü təntənə ilə qeyd olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, iştirakçılar əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə, daha sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin abidə-kompleksinə gül dəstələri düzərək xatirələrini ehtiramla yad ediblər.

Tədbirdə çıxış edənlər Azərbaycan Silahlı Qüvvələrinin Cənubi Qafqazda ən güclü ordu olduğunu vurğulayıblar. Qeyd edilib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş qabiliyyəti daim güclənən ordumuz düşmənə hər an cavab verməyə hazırdır.

Bildirilib ki, hər bir Azərbaycan vətəndaşı ordumuzun bugünkü qüdrəti ilə haqlı qürur hissi keçirir.

# Silahlı Qüvvələr Günü Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Birləşmiş Qərargahında qeyd olunub

*Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahının təşkilatçılığı ilə 26 İyun-Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibətilə rəsmi tədbir keçirilmişdir. İlk dəfə olaraq Pakistanın Birləşmiş Qərargahında keçirilən bu rəsmi mərasimdə Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahının generalları, zabitləri və Azərbaycan Respublikasının Pakistandakı səfirliyinin diplomatları iştirak ediblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycanın və Pakistanın dövlət himnlərinin səsləndirilməsi ilə başlanan tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranma tarixi və inkişaf yolu, Dağlıq Qarabağ münaqişəsinin fəsadları, erməni təcavüzünün və Xocalı soyqırımının nəticələri və Azərbaycan-Pakistan ikitərəfli hərbi əməkdaşlığı haqqında məlumatı özündə əks etdirən brifinq və videomateriallar iştirakçılara təqdim olunub.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Pakistandakı hərbi attaşesi polkovnik Mehman Novruzov tədbir iştirakçılarını salamlayaraq, onlara Silahlı Qüvvələrimizin yaranma tarixi, inkişaf yolu, Dağlıq Qarabağ münaqişəsi, həmçinin Azərbaycan ilə Pakistan arasında ikitərəfli hərbi əməkdaşlığın hazırkı vəziyyəti və gələcək perspektivləri haqqında məlumat verib. O, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən uğurlu siyasətin nəticəsi olaraq, hər bir sahədə olduğu kimi, ordu quruculuğunda da əldə olunan nailiyyətlər haqqında tədbir iştirakçılarına geniş məlumat verərək, müasir silahlarla silahlanmış, peşəkar və vətənpərvər kadrlardan ibarət olan Azərbaycan Silahlı Qüvvələrinin Cənubi Qafqazın ən güclü ordusu olduğunu qeyd edib.

İki qardaş ölkə, Azərbaycan və Pakistan arasında yüksək səviyyəli münasibətlərin olduğunu qeyd edən polkovnik M.Novruzov bu əlaqələrin hərbi, hərbi-təlim və hərbi-texniki sahələri də əhatə etdiyini və dinamik inkişaf olduğunu vurğulayıb.

Polkovnik M.Novruzov 2016-cı ilin aprelində Dağlıq Qarabağda işğalçı Ermənistan ordusunun təxribatının qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları və Naxçıvan Muxtar Respublikasında Günnüt kəndi də daxil olmaqla, böyük ərazilərin və strateji yüksəkliklərin işğaldan azad edilməsi ilə nəticələnən 2018-ci ilin may hərbi əməliyyatlarından danışaraq, ordumuzun uğurlarının bundan sonra da davam edəcəyini diqqətə çatdırıb.



O, tezliklə Azərbaycan ilə Pakistan xüsusi təyinatlılarının birgə təlimlərinin keçiriləcəyini və bu cür təlimlərin iki qardaş ölkənin Silahlı Qüvvələri arasında təcrübə mübadiləsi və qarşılıqlı uyarlılığın əldə olunması baxımından çox mühüm olduğunu bildirib.

Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahının Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi, aviasiya vitse-marşalı İrfan Zaka Pakistanın Birləşmiş Qərargah rəisləri komitəsinin sədrinin təbriklərini çatdırmış, Azərbaycan və Pakistanın hərbi əməkdaşlığının ilbəil güclənməsinin, Azərbaycan Silahlı Qüvvələrinin gündən-günə qüdrətlənməsinin sevindirici olduğunu qeyd etməklə xoş arzularını bölüşmüşdür.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Pakistandakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadə Azərbaycanla Pakistanın ortaq dəyərlərə və bağlara sahib olduğunu, Azərbaycanın müstəqilliyini yenidən bərpa etdikdən sonra, Azərbaycanla Pakistan arasında strateji tərəfdaşlıq, qarşılıqlı inam və hörmətə əsaslanan dostluq və qardaşlıq münasibətlərinin yarandığını qeyd etmişdir. Ali Baş Komandan, Prezident İlham Əliyevin Pakistanla əlaqələrə xüsusi diqqət verdiyini bildirən səfir Əli Əlizadə bunun nəticəsində hərbi sahədə də qarşılıqlı əməkdaşlığın dərinləşdiyini, birgə həyata keçirilən işlər və layihələrin mütəmadi artdığını vurğulayıb. Səfir Pakistan və Azərbaycanın bütün beynəlxalq təşkilatlarda və forumlarda bir-birini dəstəklədiyini, Pakistanın Azərbaycanın ədalətli mövqeyinin tərəfdarı və dəstəkçisi olmasının daim məmnunluqla qarşılandığını deyib.

Azərbaycan Silahlı Qüvvələr Gününün Pakistanın Birləşmiş Qərargahında keçirilməsinin möhkəm əməkdaşlığa, strateji dostluq və qardaşlığa əsaslanan Pakistan-Azərbaycan əlaqələrinin bir təzahürü olduğunu bildirən Əli Əlizadə, təşəbbüs və təşkilatçılığa görə Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədrinə və rəhbərlik etdiyi heyətə təşəkkürlərini çatdırıb.

Çıxışlardan sonra rəmzi tort kəsilib, Pakistan Birləşmiş Qərargahının Fəxri qonaqlar kitabında xatirə sözləri yazılıb və hər iki tərəfdən rəsmi hədiyyələr təqdim olunub.

AZƏRBAYCAN ORDUSU



# Bakıda hərbi orkestrlərin nümunəvi çıxışları olub

*Hərbi orkestrlər müəyyən edilmiş altı yerdə - Dənizkənarı Milli Parkın Azadlıq meydanının qarşısında və Azneft meydanı qarşısındakı Dövlət Bayrağının önündəki hissələrində, Fəvvarələr meydanında, Əhmədli qəsəbəsində Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev parkında, Zərifə Əliyeva parkında və Zabitlər parkında çıxışlar ediblər.*

Orkestrlər hərbi vətənpərvərlik mahnıları, marşlar, Azərbaycan və dünya bəstəkarlarının tanınmış müasir və klassik musiqi əsərlərindən parçalar səsləndiriblər.

Hərbi orkestrlərin nümunəvi çıxışları şəhər sakinlərində və qonaqlarda yüksək əhval-ruhiyyə yaradıb.

Təranə Əliyeva bildirdi ki, Azərbaycan dövləti Silahlı Qüvvələrin inkişafına ciddi diqqət yetirir, cəmiyyətdə orduya böyük məhəbbət, dəstək var, ordu-xalq birliyi yüksəkdir və biz bununla fəxr edə bilərik. "Hərbi orkestrin bugünkü konsertini də həmin birliyin təzahürü hesab etmək olar. Biz ordumuza inanırıq".

Rəvan Məmmədov qeyd etdi ki, hər bir vətəndaşın ən böyük arzusu işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın azad olunmasıdır. İnanırıq ki, həmin şad günü həsrətlə gözləyənlərin arzuları gerçəkləşəcək, Qarabağ həsrətimizə son qoyulacaqdır: "Xalqımız Ali Baş Komandandan döyüş əmrini gözləyir, əsgərlərimizdən zəfər soraqlarını. İnanırıq ki, Azərbaycan Ordusu doğma torpaqlarımızı azad etmək uğrunda apardığı tarixi və müqəddəs mübarizədə tezliklə qalib gələcək. Azərbaycan əsgərinə qalibiyyət arzulayıram".

Hərbi orkestrin təqdim etdiyi konserti tamaşaçılar və dinləyicilər rəğbətlə qarşıladı. Dinləyicilərə böyük ruh yüksəkliyi bəxş edən konsert proqramı hansı notlarla başladısa, həmin notlarla başa çatdı...

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# "Konflikt jurnalistikası məktəbi"nin növbəti auditoriya təlimi keçirildi

*Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin təşkil etdiyi "Konflikt jurnalistikası məktəbi" adlı birgə layihənin Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində növbəti auditoriya təlimi keçirildi.*



Tədbiri giriş sözü ilə açan İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabiti Elmar Zeynalabdinov təlim iştirakçılarını salamlayaraq, orduda baş verən yeniliklərin, hadisələrin, keçirilən təlimlərin ictimaiyyətə ilk mənbədən, dolğun və dəqiq çatdırmağın vacib olduğunu vurğuladı. O dedi ki, əvvəllər yaranmış problemlərə yol verməmək üçün jurnalistlərin hərbi biliklərinin artırılması və hərbi qulluqçuların KİV-lərlə işləməsi ilə bağlı təlimat hazırlanıb. Zabit onu da qeyd etdi ki, Müdafiə Nazirliyi də informasiyanın mediaya ötürülməsi üçün zəruri işlər görür. Həmçinin jurnalistlər hərbi hissələrə getmək üçün akreditasiyadan keçirilir.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin zabiti polkovnik-leytenant Elvin Əzizov çıxış edərək hərbi hissə daxilində davranış qaydaları, nizam-intizam, daxili qayda-qanunlar, təhlükəsizlik qaydalarına riayət edilməsi və digər mühüm məsələlər haqqında dinləyiciləri məlumatlandırdı: "Belə təlimlərin keçirilməsi kütləvi informasiya vasitələrinin nümayəndələri ilə ordu mənsubları arasında sıx və möhkəm əlaqələrin qurulmasına təkan verir. Eləcə də televiziya və radio işçilərinin bölmələrdə şəxsi heyətlə görüşləri təşkil olunur ki, bu da ordumuzun güc və qüdrətinin, yaradılan yüksək sosial-məişət şəraitinin cəmiyyətə daha dolğun və düzgün çatdırılmasında müsbət rol oynayır". Çıxışına davam edən zabit təlim mərkəzinin iş prinsipindən, ümumi fəaliyyətindən söz açaraq, burada təhsil alan kursantlara jurnalistlərlə davranma, ünsiyyətə girmə, fəaliyyətləri barədə informasiya vermə haqqında maarifləndirici işlərin də aparıldığını vurğulayaraq təlimin gedişinə uğurlar arzuladı.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin psixoloqu baş-leytenant Reyhan Maniyeva hərbi kollektiv arasında formalaşan sosial-psixoloji mühitdən danışaraq, jurnalistin həmin mühitə uyğunlaşmasında psixoloji faktorların rolundan söz açdı. Stress, həyəcan kimi daxili vəziyyətlərdən danışdı. Həmçinin zabit təlim iştirakçıları ilə jurnalistin ekstremal vəziyyətlərlə üzləşəcəyi təqdirdə necə davranacağına dair test yoxlaması keçirdi və nəticələri iştirakçılarla birgə təhlil etdi.

Daha sonra Baki Media Mərkəzinin foto-müxbiri Vüqar İbadov foto-jurnalistikanın sirlərindən danışaraq təcrübələrini gənc jurnalistlərlə bölüşdü və öz fəaliyyəti zamanı obyektivinə tuş gələn maraqlı, yaradıcı fotolardan hazırladığı slaydı nümayiş etdirdi.

Auditoriya təlimindən sonra təlimalanlar xatirə şəkli çəkdirdilər.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Yanğından mühafizəyə cavabdeh şəxslərlə təlim-metodiki toplanış keçirilib

*Müdafiə Nazirliyinin "N" hərbi hissəsində Azərbaycan Ordusunun hərbi hissələrinin yanğından mühafizə xidməti və yanğından mühafizə komandalarının rəisləri, həmçinin yanğından mühafizə üzrə müfəttişlər ilə təlim-metodiki toplanış keçirilib.*

Üç gün müddətində keçirilən təlimin mahiyyəti və qarşıda duran əsas məsələlərlə bağlı təlim iştirakçılarına məlumatlar verilib. Bildirilib ki, toplanışın keçirilməsində əsas məqsəd baş verə biləcək yanğın zamanı insanların təhlükəsizliyinin təmin edilməsi, təxliyə planının öyrənilməsi və şəxsi heyətlə maarifləndirmə işlərinin aparılmasıdır.



Təlim-metodiki toplanışda yanğın profilaktika işinin təşkili, yanğından mühafizə komandasının vəzifə borcları və hüquqlarının öyrədilməsinə dair dərslər keçirilib. Həmçinin yanğın-texniki avadanlıqların istismarına və onlara texniki qulluq göstərilməsinə də diqqət yetirilib.

Təlim-metodiki toplanış uğurla başa çatıb.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Füzuli rayonunun ictimaiyyəti Silahlı Qüvvələr Gününü hərbçilərlə birgə qeyd edib

*Füzuli rayonunun ictimaiyyəti Silahlı Qüvvələr Gününü rayon ərazisindəki hərbi hissədə əsgər və zabitlərlə birgə qeyd edib.*

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə çıxış edənlər əsgər və zabitləri Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının ildönümü münasibətilə təbrik edib, onlara çətin və şərəfli işlərində uğurlar arzulayıblar. Azərbaycanda ordu quruculuğunun ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən natiqlər son illərdə Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növləri üzrə inkişaf edərək qüdrətləndiyini diqqətə çatdırıblar. Bildirilib ki, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası möhkəmləndirilib, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Regionun ən qüdrətli silahlı qüvvəsinə çevrilən Azərbaycan Ordusu hər an düşmənə layiqli cavab vermək əzmindədir.

Çıxışlarda işğal altındakı ərazilərimizin tezliklə azad ediləcəyinə, əzəli torpaqlarımızdan didərgin düşmüş həmvətənlərimizin öz ata-baba yurdlarına qayıdacaqlarına və ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminlik ifadə edilib.

Tədbir rayonun mədəniyyət və incəsənət ustalarının ifasında konsert proqramı ilə davam edib.

Ehtiyatda olan zabit Əliyev Rauf Baxış oğluna 1997-ci ildə verilmiş muharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 518
Nüsxə 3950